**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 281/3** **21 noyabr 2016-cı il**

**«Könüllü və əlaqəli auditor xidmətlərinin genişləndirilməsi üzrə tədbirlər sisteminin tətbiqi» barədə**

Auditorlar Palatasının 2016-cı il üzrə iş planının 1.13-cü «Könüllü və əlaqəli auditor xidmətlərinin genişləndirilməsi üzrə tədbirlər sisteminin tətbiqi» barədə bəndinə uyğun olaraq, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi (S.Gülməmmədov), sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov və Auditorlar Palatasının Şurası yanında Milli auditə dəstək üzrə komitə (Z.Hüseynov) tərəfindən hazırlanmış hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. «Könüllü və əlaqəli auditor xidmətlərinin genişləndirilməsi üzrə tədbirlər sisteminin tətbiqi» barədə hesabat nəzərə alınsın (əlavə olunur).
2. Auditorlar Palatasının Şurası yanında Milli auditə dəstək üzrə komitə (Z.Hüseynov) tərəfindən hazırlanmış “Biznesin (müəssisənin) qiymətləndirilməsi üzrə” metodik göstəriş təsdiq edilsin (əlavə olunur).
3. Auditorlar Palatasının Şurası yanında Milli auditə dəstək üzrə komitənin sədri Zamin Hüseynov tərəfindən görülmüş iş müsbət qiymətləndirilsin və Palata rəhbərliyinə tövsiyə edilsin ki, Zamin Hüseynovun fərqləndirilməsi məsələsini nəzərdən keçirsin.
4. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, Auditorlar Palatasının Şurası yanında Milli auditə dəstək üzrə komitə (Z.Hüseynov) tərəfindən hazırlanmış “Biznesin (müəssisənin) qiymətləndirilməsi üzrə” metodik göstərişin auditor təşkilatları və sərbəst auditorlara çatdırılmasını təmin etsin.
5. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) və Auditorlar Palatasının Şurası yanında Milli auditə dəstək üzrə komitənin sədri Z.Hüseynova tapşırılsın ki, “Biznesin (müəssisənin) qiymətləndirilməsi üzrə” metodik göstərişə dair Palatanın üzvləri üçün seminarın keçirilməsini təmin etsinlər.
6. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, “Biznesin (müəssisənin) qiymətləndirilməsi üzrə” metodik göstərişin 2017-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramına salınmasını təmin etsin.
7. Bu qərarın mətninin və “Biznesin (müəssisənin) qiymətləndirilməsi üzrə” metodik göstərişin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**